AZƏRBAYCAN

№52 (1573) ÇƏRŞƏNBƏ AXŞAMI, 18 MART 1997-ci il

Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur

İNDEKS 0001

Qiyməti 500 manat.

# АЗӘРБАЈЧАН ПРЕЗИДЕНТИ ҺЕЈДӘР ӘЛИЈЕВ ДАҒЫСТАНЫН БАШ МҮФТИСИНИ ГӘБУЛ ЕТМИШДИР



Азәрбајчан президенти Һејдәр Әлијев мартын 15-дә Президент сарајында Дағыстанын баш мүфтиси Сејид Мәһәммәд Һачы Абубакаровун рәһбәрлик етдији бу республика руһаниләринин нүмајәндә һеј'әтини гәбул етмишдир.

Президент Һејдәр Әлијев Дағыстан нүмајәндә һеј'әтинин Азәрбајчана сәфәриндән мәмнун галдығыны билдирәрәк деди ки, өлкәмиз Русија Федерасијасынын бир һиссәси олан Дағыстанла әлагәләри мөһкәмләндирмәк вә инкишаф етдирмәк саһәсиндә тәдбирләр көрүр. Дөвләтимизин башчысы вурғулады ки, өлкәләримиз вә халгларымыз арасында әлагәләри мөһкәмләндирмәк вә инкишаф етдирмәк үчүн бүтүн имканлардан вә васитәләрдән истифадә етмәк лазымдыр. Бу бахымдан дин хадимләри, о чүмләдән Азәрбајчанын вә Дағыстанын дин хадимләри бөјүк рол ојнајырлар. Онлар бир-бири илә јахшы әлагә, достлуг мүнасибәтләри сахлајыр, бунунла да дөвләт хадимләринә көмәк көстәрирләр.

Һәм Азәрбајчанда, һәм дә Дағыстанда инсанларын бүтүн азадлыглардан, о чүмләдән дини е'тигад азадлығындан истифадә етдикләрини вурғулајан президент Һејдәр Әлијев belә бир чәһәтдән мәмнун олдуғуну билдирди ки, һәр ики республикада ислам дини гыса мүддәтдә өз мөвгејини бәрпа етмишдир. Әслиндә, дин әлејһинә тәблиғат апарылдығы әввәлки илләрдә дә инсанлар өз ән'әнәләриндән, о чүмләдән дә дини ән'әнәләриндән һеч вахт узаглашмамышдылар.

Көрүш үчүн Азәрбајчан президентинә тәшәккүр едән баш мүфти Дағыстан диндарларынын, өз республикасынын дини идарәси рәһбәрлијинин, һабелә Дағыстан рәһбәри Мәһәммәдәли Мәһәммәдовун саламларыны јетирди. Гонаг гејд етди ки, Азәрбајчанда дини вә дүнјәви һакимијјәт арасындакы мүнасибәтләрин сәвијјәси бәјәнилмәли нүмунәдир. Әкәр Дағыстан нүмајәндә һеј'әтинин Бакыја индики сәфәри бизим дини әлагәләримиз үчүн, дүнјәви ишләрә, халгларымыз арасында мүнасибәтләрә мә'нәви фајда вермәјин башланғычы оларса, бунун өзү бөјүк ишдир.

Баш мүфти билдирди ки, нүмајәндә һеј'әтинин Бакыја сәфәри һәм дә Дағыстанын 12.600 зәвварынын, - бу, Русијадан олан бүтүн зәвварларын 80 фаизини тәшкил едир, - Азәрбајчан әразисиндән кечәрәк Мәккәјә кетмәси илә бир вахта дүшмүшдүр. О, Азәрбајчанын бундан өтрү етдији вә едәчәји һәр шејә көрә миннәтдарлығыны билдирди, һабелә президент Һејдәр Әлијеви вә онун шәхсиндә бүтүн Азәрбајчан халгыны гаршыдакы Новруз бајрамы мүнасибәтилә тәбрик етди. Баш мүфти деди: Дағыстан руһаниләри дә, рәһбәрлији дә истәрди ки, Азәрбајчан президенти Һејдәр Әлијев вә шејхүлислам Һачы Аллаһшүкүр Пашазадә Әзиз Әлијевин јубилеји шәрәфинә Дағыстанда кечириләчәк тәнтәнәләрдә иштирак етсинләр.

Республикаларымыз вә халгларымыз арасында әлагәләрин кәләчәји барәдә Азәрбајчанын вә Дағыстанын мөвгеләринин үст-үстә дүшдүјүнү, Дағыстан вә Азәрбајчан рәһбәрлији арасында, республикаларымызын дин хадимләри арасында ән'әнә үзрә јахшы мүнасибәтләр олдуғуну, һабелә бир-биринә көмәк етмәјин зәрурилијини вурғулајан президент Һејдәр Әлијев деди ки, Азәрбајчан өз әразисиндән зәвварларын кечмәсинә имкан јарадачагдыр.

Дөвләтимизин башчысы гејд етди ки, Дағыстан вә Азәрбајчанын гаршылыглы мүнасибәтләриндә баш верән мүсбәт просесләрлә јанашы, бу мүнасибәтләри позмаға чалышан дахили вә харичи гүввәләр дә вар. Дағлыг Гарабағ мүнагишәсинин арадан галдырылмасыны истәмәјән мәһз бу дүшмән гүввәләрин Дағыстан әразисиндән истифадә етдикләрини билдирән президент Һејдәр Әлијев Ерменистанын хүсуси идарәләри тәрәфиндән Дағыстанын ајры-ајры вәтәндашларынын Азәрбајчана көндәрилмәси вә онларын бурада тәхрибат төрәтмәси барәдә фактлары мисал чәкди. Бунунла јанашы, республикамызын рәһбәри деди ки, һәм Азәрбајчан, һәм дә Дағыстан белә һалларын гаршысыны алмаға гадирдирләр.

Дөвләтимизин рәһбәри баш мүфтинин белә бир фикри илә разылашды ки, бә'зи үнсүрләр, о чүмләдән чинајәткар үнсүрләр диндән, дини фәалијјәтдән өзләринин гәрәзли чинајәт характерли мәгсәдләри үчүн истифадә етмәјә чәһд көстәрирләр. Президент гејд етди ки, Гафгаз Мүсәлманлары Идарәси вә онун башчысы белә һәрәкәтләрә диггәтлә көз гојур. Президент Һејдәр Әлијевин фикринчә, кимин динә хидмәт етдијини, кимин исә бундан өз мәгсәдләри үчүн истифадә етмәјә чалышдығыны инди Азәрбајчанда да, Дағыстанда да ајырд едә билирләр вә беләләринин гаршысыны да ала билирләр.

Дағыстанын баш мүфтиси әмин етди ки, руһаниләрин фәалијјәти бундан сонра да јалныз сүлһјаратма миссијасы илә, өз сыраларыны јаланчы дин хадимләриндән, сијасәтбазлардан тәмизләмәклә бағлы олачагдыр ки, руһаниләр бизим нијјәтләримизи, әмәлләримизи бирләшдирмәјин халгларымыз арасында гардашлыг мүнасибәтләринин васитәчиләри олсунлар.

Дағыстан зәвварларынын Азәрбајчан әразисиндән кечмәси мәсәләсинә јенидән гајыдан баш мүфти Азәрбајчан президенти Һејдәр Әлијевдән хаһиш етди ки, - Дағыстан Дөвләт Шурасынын сәдри Мәһәммәдәли Мәһәммәдовун мәктубунда да гејд едилдији кими, - һәм зәвварлар үчүн, һәм дә јерли әһали үчүн проблемләр јаранмасын дејә, Иран-Азәрбајчан сәрһәдиндәки Астара нәзарәт-бурахылыш мәнтәгәси апрелин 1-дән 10-дәк кечә-күндүз ишләсин, һабелә Азәрбајчан рәһбәри бу мәсәләнин Иран тәрәфиндән дә һәллинә көмәк көстәрсин.

Президент Һејдәр Әлијев деди ки, Астара нәзарәт-бурахылыш мәнтәгәсиндә иши тә'мин едән Азәрбајчан органларына зәвварларын сәрһәддән тез бурахылмасы үчүн максимум тәдбирләр көрмәк барәдә, һабелә мүвафиг органлара мәсәләнин һәлли үчүн Азәрбајчандакы Иран сәфирлији илә әлагә сахламаг һаггында тапшырыг верәчәкдир.

Баш мүфти бунун үчүн президент Һејдәр Әлијевә миннәтдарлығыны билдирди.

Көрүшдә дөвләт мүшавири Һидајәт Оручов, Гафгаз Мүсәлманлары Идарәсинин сәдри шејхүлислам Һачы Аллаһшүкүр Пашазадә иштирак едирдиләр.

**АзәрТАч.**
**Фото**
**О.Ајдыноғлунундур.**